# N.B. VƏZİROVUN “SONRAKI PEŞMANÇILIQ FAYDA VERMƏZ” ƏSƏRİNDƏ AİLƏ PSİXOLOGİYASI

**Arifə İskəndərova,**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: isgenderova@mail.ru

**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.N.T. Rzayeva,*
*ped.ü.fəls.dok. L.Nağıyeva*

***Açar sözlər:*** *N.B.Vəzirov, qadın şəxsiyyəti, ailə münaqişələri, qaynana – gəlin, gəlin – baldız, ər – arvad, valideyin - övlad münasibətləri, haqsızlıq, peşmançılıq*

***Ключевые слова:*** *Н.Б. Везиров, личность женщины, семейные отношения ,свекровь-невестка, невестка-золовка, муж-жена, взаимоотношения детей и родителей, несправедливость ,расскаяние*

***Key words:*** *N.B. Vezirov, woman's personality, family relations, mother-in-law, daughter-in-law, sister-in-law, husband-wife, mutual relations of children and parents, injustice*

Ailələrdə uşaqların multikultural tərbiyəsi, onların əsl vətənpərvər, milli, humanizm ruhunda inkişafı həmişə, bütün dövrlərdə aktual olub və bu gün də aktualdır.

Ulularımız, ağsaqqal – ağbirçəklərimiz həmişə ailə - məişət psixologiyası məsələlərinə həssaslıqla yanaşmağı tövsiyə edirdilər. Erkən nikahlar, cütlüklərin savadsızlığı və evdə qaynana – gəlin münasibətləri, mənasız, yersiz söz – söhbətlər, dava – dalaş nəticədə boşanmalara və faciəli hadisələrə gətirib çıxarır. Bütün dövrlərdə ailədə qadın zorakılığı, onların döyülməsi, evdən qovulmaları, işgəncələrə məruz qalmaları, zorla özlərindən xeyli yaşlı adamlara (mollalara, bəylərə, qoçulara, qumarbazlara və s.) verilməsi adı hal kimi özünü göstərirdi. Cavan yaşında ər evindən qovulan qadınları qohum - əqrəba, ana – ata, əmi, dayı qəbul etmirmiş və nəticədə həmin qadınlar ehtiyac içində boğulur və çox hallarda həyatları ölümlə nəticələnirdi. Müasir dövrün də ən böyük bəlasına çevrilən bu problem ədib və mütəfəkkirləri tarixən düşündürmüş, onların yollarını axtarmış, bu istiqamətdə xidmətlər göstərməyə cəhd göstərmişlər. Bəzən adama elə gələr ki, XIX əsrdə və ondan əvvəlki illərdə ailə, qadın, uşaq problemləri haqqında deyilən fikirlər, yaradılan qadın obrazları, ər-arvad münasibətləri bəlkə də öz əhəmiyyətini itirib. Çünki müasir dövrün öz tələbləri, öz qanunları var. Lakin bir çox əsərləri oxuyarkən, onları təhlil edərkən, televiziya verilişlərinə, sosial şəbəkələrə diqqət yetirərkən bunun əksini görürük. Həmin əsərlərdə irəli sürülən fikirlər sanki bu günkü hadisələri tamamilə özündə ehtiva edir. Həmin əsərlərdə müasir gənclərdə ailə qurarkən nələrə, hansı psixoloji məqamlara fikir vermələrinə diqqət yönəldilir. Zənnimizcə, görkəmli tarixi şəxsiyyətlərin, yazıçıların qabaqcıl və mütərəqqi fikirləri heç bir zaman öz mahiyyətini itirmir və zaman keçdikcə onların qiyməti daha da artır. Həmin ədiblərdən biri də N.B. Vəzirovdur. Ədibin “Sonrakı peşmançılıq fayda verməz”, “Müsibəti Fəxrəddin”, “Yağışdan çıxdıq yağmura düşdük”, “Daldan atılan daş topuğa dəyər”, “Adı mənim, dadı sənin” əsərləri bu baxımdan diqqəti cəlb edir. “Sonrakı peşmançılıq fayda verməz” adlı əsərində söhbət iki ailədə (Səlman bəy və Səttar bəyin ailəsində) baş verən mənəvi – psixoloji münasibətlərdən gedir.

Səlbinaz xanım simasında N.B. Vəzirov əsl Azərbaycan qadınına xas olan ismətli, namuslu, sosial-psixoloji cəhətdən ailəsinə, həyat yoldaşına hörmət edən bir obraz yaratmışdır.

Səlman bəy təzə evlənib, dəftərxanada mirzə işləyir. Onun arvadı çox təmiz, təmkinli, ləyaqətli, mənəvi cəhətdən təmiz bir Azərbaycanlı qadınıdır. Fatma xanım Səlman bəyin anasıdır. Çox deyingən, ancaq özünü düşünən, oğul, gəlin saymayan, gəlinini daim gözdən salmağa çalışan, hiyləgər bir qadındır (bir növ “Qaynana” filmindəki Cənnət xalanı xatırladır).

Ədib göstərir ki, ailə təkcə ər – arvad, övlad münasibətlərindən ibarət deyil, bu böyük bir münasibətlər (qohum - əqrəba) sistemidir. Bu

münasibətləri psixoloji baxımdan tənzimləmək anadan, atadan və digər ailə üzvlərinin intellektual səviyyəsindən asılıdır. Görünür ailədə münasibətlər sisteminin tənzimində humanizmin inkişaf və tərbiyəsi diqqətdən yayınmışdır. Qayınana da, qayınata da, ər və arvad da ədalətli, insaflı, alicənab, əxlaqlı, islama bağlı şəxsiyyət olmalı və uşaqların taleyinə laqeyd olmamalıdırlar.

Fatma xanım, insafsız, acımasız, ədalətsiz işlər görür. Hətta oğlu Səlmana belə qarğış edir. "Vallah, mən özüm bu saat bir haldayam ki, nəinki Səlmanı, qardaşlarımı da gözümün qabağında doğrasalar, əhvalıma təfavüt eləməz. O adı batmış oğlum. Getsin, neynək. Boynu ha yanının altında qalmayacaq, həlbət gələr. Mən bu gecə sabaha kimi can vermişəm, səsimi qonşular eşidibdi, buradanca bura bir gəlib deyən olmayıbdı ki, niyə ölürsən." (1, 43).

Etnopsixoloji kökdən gələn Azərbaycançılıq qadınlardan bəzilərində deyingənlik, hikkəlilik, mənəm – mənəmlik Fatma xanımda da özünü göstərir. Fatma xanım oğlu ilə gəlinin arasına nifaq salmaq üçün heç yerdən dava salır, stəkanları sındırır. Gəlni Səlbinaz onun hərəkətlərinin səbəbini soruşanda hikkə ilə cavab verir: "Sındırıram, belə bu əllərimin ortasından gəlir. Dədənin ha xarabasının qabın sındırmıram?" (1, 43).

Fatma xanım addımbaşı gəlini Səlbnaz xanımı təhqir edir, onu döyəcəyi ilə qorxudur. Hikkəsindən evdə olan qab – qacağı sındırır və yolla gəlininə psixoloji təsir edir, onu qorxu altında saxlayır, tez – tez səni döyərəm, qabları sındıraraq deyir: "Çox artıq danışarsan, duraram hamısını cilikçilik elərəm."

Səlbinaz xanım isə "Səndən hər nə desən çıxar. Qorxuram mənim özümü də döyəsən." deyir.

Fatma xanım çox hikkəli bir şəkildə deyir: "Səni döyəndə sən Çingiz xanın nəvəsisən? Səni döymək olmaz? Anan sarımsaq, atan soğan, sən haradan oldun belə gülməşəkər, balam?!"

Təcrübələr, psixoloji tədqiqatlar sübut edir ki, şəxsiyyətinin səbrinin də bir həddi var və bu hədd gözlənilmədən affektiv hal yaradır. Onda insan artıq özünümüdafiəyə qalxır, qarşısındakı adama öz sözünü deyir. Ona görə də çox mülayim davranan Səlbinaz qaynanasına cavab qaytararaq deyir: "Çox artıq danışma, sənin də atanı tanıyırlar, mənim də."

Fatma xanım "Səndə taxsır yoxdu. Taxsır mənim o arvadağızdı oğlumdadı. Elə oğlun boyuna ip ölçüm... Mən öz əlimlə öz başıma daş salmışam, sənin ananı görə-görə, gedib səni alanda." ifadəsi də Azərbaycan etnosundan gəlir. Gəlni Fatma xanıma cavab verərək deyir: "Sən alanda başımıza tac qoymusan? Sən almazdın, həlbət bir hambal tapılardı."

Adı çəkilən ailədə hərcimərclik, qeyri-səmimi münasibət, qaynana – gəlin münasibətləri artıq müşahidəyə çevrilib: "Dünən bir, bu gün iki, dilinə bax dilinə... Niyə daş yağmır, Allah?" deyə qışqıraraq hay – küy salır.

Səlbnaz xanım "Sən bu gün aşkara dava axtarırsan. Qoy, Allahı sevirsən, bu bir stəkan çayı içək." Deyərək qaynanasını həlim olmağa, ədalətli, insaflı olmağa çalışır.

Fatma xanım isə cavabında "Iç, beşin iç, ağzınacan da qəndin doldur, qazananın canı çıxsın. İstəyənə də ver, qənd ver, çay ver, düyü də ver. Kimdi qabağına duran! Səlman bəyin vayın eləyim!" deyə söyləyir.

"Elə bir ovuc düyüdən ötrü ki, dünən o yazıq arvada verdim, qarnına od dolubdu. Bilməmişdik gərək rüsxət istəyəydik, bağışlayasınız?" deyərək Səlbinaz xanımın yenə səbri dözmür cavab verir.

Fatma xanım yenə də özünü haqlı hesab edərək "Uy, uy, uy! Aman, aman! Dad, balam, sənin kiminin əlindən!" deyə söyləyir. (1, səh. 44).

Fatma xanım evdə heç kəslə yola getmir. Ailədə heç kəsi saymır. Nökərlə, oğlu Səliman bəylə acı danışar, nökər Ələkbərdən şübhələnir, onun gəlni ilə əlbir olduğunu güman edir. Bir sözlə, şübhələr, çirkin, nadan fikirlər onu daim izləyir.

Fatma xanım gəlinin ələ salmaq məqsədilə hər cür qeyri-səmimi alçaldıcı hərəkətlərə əl atır, hətta qaynana filmində olduğu kimi (Cənnət xanım) gəlinin qarşısında oynayıb, ona rişxənd edir. İş o yerə çatır ki, Fatma xanım gəlini təhqir edib, evdən qovmaq istəyir. Elə bu vaxt Səlman bəyin nökəri içəri daxil olur. Fatma xanım Ələkbəri də təhqir edir. Onu Səlbinazın öyrətdiyini deyir:

Ələkbər (Fatma xanıma). Xanım, günorta oldu, ət alıb gətirmişəm, nahara nə bişirim?

F a t m a xanım. Dədəmin dərdin! Sürün buradan, it südü əmmiş! Gözümə elə nahar görünürdü.

Ələkbər. Sənin çox da gözünə görünmədi. Axı ağa gələcəkdi ac-susuz, ona nə deyim?

F a t m a xanım. Get boğma pişir, zəhər pişir, zəhərmar pişir, dərd, vərəm pişir, yaxşımı?..

Ə l ə k b ə r. Heyif o oğlana ki, sənin oğlundu.

F a t m a xanım. Allah, gör mən nə günə düşmüşəm ki, bu Kürd gədəsi də üzümə durubdu! Ay səni öyrədənin üstünə ildırım düşsün! Ay səni öyrədənin ciyəri dağlansın! Mənə xoruz-beçə deyirsən!

Ə l ə k b ə r . Məni öyrədib eləyən yoxdu. Sən Səlbinaz xanıma eyham atırsan. Amma imanlı ol, məni öyrədib eləyən yoxdu, doğrusu budu ki, mən dahı burada dura bilmərəm.

F a t m a xanım. Səni gücnən saxlayıram a mürtəd oğlu! Get, məlun oğlu məlun, yoxsa bağrım çatdar.

S ə l b n a z xanım. Get balam, get... Görürsən nə canbaza çıxıbdı?

Ə l ə k b ə r. Getməyəndə canımı çöldən tapmamışam, hər kim bu arvadın üzünə baxsa, sill azarına düşər. (1, səh. 45).

Baxın N.B. Vəzirov bir bu ailənin simasında XIX əsrdə Azərbaycan ailələrində hökm sürən faciələri, qadın hüquqsuzluqlarını, xüsusi ilə cavan qızlara, gəlinlərə olan qeyri – səmimi münasibətləri, onların "mən"nin təhqir olunduğunu açıb göstərir.

Səlbinaz xanım artıq evdəki təhqiramiz sözlərdən bezir və evdən çıxıb gedir, ancaq sözünü deyib gedir: "Mən gedirəm, bilirəm də oğluna iki yüz min pis şeylər mənim haqqımda məndən goplayacaqsan... Eybi yoxdu, desən biiman öləsən." (1, səh. 46). Səlbinaz xanım çıxarkən anası Çiçək xanıma rast gəlir və yenidən onunla birlikdə qayıdırlar. O, qızdan halını görüb soruşur: "Nə var, nə var, hara belə tələsik?" (1, səh. 46). Fatma xanım yalanın bütün növlərindən istifadə edərək Səlbnaza böhtanlar yağdırır: "A qız, Çiçək, belə şeyin var idi, balam, özcə başına

yaxeydin... Məni niyə cəhənnəm oduna salırdın? A qız! Sənin bu ləçər qızın mənim üstümə oğurluq yıxır.

Mənə deyir ki, düyünü qoltuğuna basıb aparırsan atayın evinə. Buna nə deyirsən? Məni bu ağbirçək vaxtımda oğru eləyir. Bunu Allah götürər? Belə iş harada görünüb, a sənin evini Allah yıxsın!" (1, səh. 46). Səlbnaz xanım Fatma xanıma dil çatdıra bilmir. Ancaq onu deyir ki, "Barı ağ birçəyindən utan, gözümün içinə yalan demə, böhtan atma, Allahdan qorx, bəndədən utan!" (1, 46). Ana – bala bu söhbətə dözməyib gedirlər. Fatma xanım yenə qəddarcasına deyir: "Gedin qabağınız qaya olsun, dalınız qırğın!" (1, 48). Burada N.B. Vəzirov Fatma xanım obrazı ilə qaynanalara öz arzularını bildirir. Qohumluqda yersiz söhbətlərdən, təhqirlərdən oğulları çəkindirir. Göstərir ki, bu cür davaların axırı boşanmalarla, ölümlə və digər faciəli sonluqlarla bitir. O, ailələrdə özünü göstərən belə münaqişələrə, müasir Fatma xanımların diqqətini yönəldir, oğullarının, qızlarının ailələrini dağıtmamağı tövsiyə edir.

Fatma xanım özünü ağbirçək ana kimi apara bilmir. Fikri-zikri dava eləmək, oğlu ilə gəlinin arasına nifaq salmaqdır. O, evdə tək oturub deyir: "Keçən zamana necə gözəl zamana idi... Biz dörd gəlindik evdə... Hamımız qayınanamızın qabağında əli bağlı, satın alma qul kimi... Əlimiz-əlimizin üstə, üzüörtülü buracan. (Döşünü göstərir.) Kimsənin cürəti nəydi bir kəlmədən artıq danışsın! Bəli, xeyr. (Süpürgələyir.) O zamanda xeyr var idi, bərəkət var idi. Bir kəlmədən artıq danışanda deyirdi:. Ay hey, yolunu itirmə, düz tərpən!.. Gəlinlər də dinməz-söyləməz (əlini vurur ağzına), guya ki, laldılar... İndi gəl, tamaşa elə. (Süpürgələyir.) Bu zamananın gəlinləri belə otur kaftar, elə dur biiman, axıratsız! Tumanlarını elə fırladırlar, az qalır ki, göz tökələr... (Süpürgələyir.) Odu ki, bərəkət qalmayıb da... Bəs bu çiçək, qızılcıq, boğazağrısı nədəndi?.. Hamısı tamam onnandıki, böyüyün üzünə ağ olurlar. Bu zamanın gəlinlərinin üzdərinə daş yamansın, üzdərini qara yer örtsün." (1, 48).

Onun oğlu Səlmanla dialoqu da tədqiq etdiyimiz problem baxımından çox maraqlıdır. Oğlu Səlman nökər və arvadı Səlbinazın evdə olmamalarının səbəbini soruşanda anası yenə böhtana, yalana əl atır və nökəri Səlbinazın qovmasını deyir: "Balam, gədəni arvadın qovdu... Elə gəlini görüm ki, qudursun, çiyinlərin yesin. Mən də ki, görürsən, ağzı üstə qalmışam, tərpənə bilmirəm." (1, 48). Arvadını isə "Belə anası gəldi, tutdu qolundan, götürdü getdi... Az qalmışdı məni də burada döyələr. Yəqin gördülər ki, məndə o hal yoxdu, getdilər, Allah atalarına rəhmət eləsin." (1, 49). Oğulla anası söhbət

edərkən Səlbinaz anası Çiçəklə içəri daxil olur. Çiçək Səlman bəyə üzünü tutaraq deyir: "Bircə, qadam, buyur görüm, bu yetimin sahibi sənsən, yoxsa bunun yüz dargası var? Əgər bunun sahibi sənsən, bu evdən niyə qovurlar?.. Bu bədbəxtin qızı niyə bu günə düşübdü? Bir dərisi qalıb, bir sümüyü." (1, 50). Bu söhbətlərdən Səlman bəyə bəlli olur ki, günah anasındadır: "Bu ev cin-şəyatin ocağıdı, baş götürüb gedən canı qurtarır." (1, 52).

Səlman bəyin əmisi oğlunun ailəsində də bu cür hallar yaşanır. Səttarın arvadı Şamama xanım onu yola vermir. Tez – tez dalaşır, ailədə münaqişələr yaradır. Onlara gələn Şamama xanım və Səttar bəy ailədə olan münaqişələrdən Səlman bəyə şikayət edirlər. Bu ailədə isə gəlin – baldız münaqişələrindən söhbət gedir.

Ailə kiçik bir dövlətdir. Burada baş verən bütün sosial-psixoloji hadisələr (ər və arvadın bir-birinə olan laqeydliyi, bir-birini təhqir etmələri, öz "mən"lərini qorumamaları, tez-tez dalaşmaları və s.) boşanmaları yaradan səbəblərdən biridir. Bu cür hadisələr nəticəsində ər-arvad, valideyn-övlad münasibətlərində sərinlik yaranır, ailə üzvləri arasında pərdə götürülür. Təbii ki, belə ailələrdə təhsil, tərbiyə, qarşılıqlı hörmət arxa plana keçir.

Səlman bəy görür ki, əmisi oğlunun ailəsində də oxşar hallar yaşanır. Səlman bəy yavaşca kənara çəkilərək "Həmdərdlərim tapılıb." (1, 52) deyir. Baş verən faciə bir daha göstərir ki, ailə münaqişələrinin yaranmasında əsas səbəb kənar müdaxilələrin olmasıdır. Bu ailələrdə isə kənar müdaxiləni edənlər isə qaynana və baldızdı. Bu müdaxilələr sonda iki ailənin dağılmasına səbəb olur. Ədibin fikrincə bütün bunların hamısı ailənin düzgün idarə olunmamasından əmələ gəlir. Evin kişisinin əsl "kişi" vəzifəsini, etnopsixoloji dəyəri daşıya bilməməsidir. Bəzi qadınların, qızların, gəlinlərin qadına xas olan əxlaqi – sosial keyfiyyətlərə yiyələnməmələridir.

Axırda hər iki əmioğlanları ailələrindəki acınacaqlı vəziyyətdən çıxış yolunu evdən qaçıb Sibirə getmələrində görürlər. Belə də edirlər. Onlar evi tərk edəndən sonra Fatma xanım, Şamama xanım və digər xanımlar da öz hərəkətlərinə görə peşman olurlar. Şamama xanım Səttar bəyin arxasınca qışqırıb deyir: "Səttar, Səttar, bircə geri qayıt! Səttar, aman günüdür, Səttar!.. Səttar, getmə. Səttar, balalarını kimə tapşırıb gedirsən? Səttar, qurbanın olum, getmə, qələt eləmişəm... (Geri qayıdır.) – Allah, bu nə işdi mən düşdüm, öz əlimdən öz evimi tar-mar elədim." (1, 54). Bu isə artıq bütün qadınlara bir mesajdır. Amma artıq gec idi. Onlar getdilər. Sonrakı peşmançılıq heç bir fayda vermədi. Ədib göstərdi ki, düşünülməmiş addım insanları faciəyə aparır. Ailədə çılğınlıq, səbirsizlik, qarşılıqlı güzəştə getməmək məhz bu cür sonluqla yekunlaşır.

Beləliklə, müasir dövrdə də gənc ailələrdə bu cür hallar yaşanır. N.B. Vəzirov bu əsəri ilə gənc ailələrə bir mesaj ötürür ki, daha səbirli və təmkinli olsunlar və əl birliyi ilə ailələrini qorusunlar. Çünki iş işdən keçdiyi üçün, sonrakı peşmançılıq heç bir fayda vermir. N.B. Vəzirov bir daha göstərir ki, ailələrdə baş verən sosial-psixoloji hallar, frustrasiya, hərcimərclik, dediqodu, ailə üzvlərinin bir-birlərinə güzəşt etməmələri ailənin dağılmasına, uşaqların ortada qalmasına səbəb olur və nəticədə cəmiyyət zərər çəkir, uşaqlar həyata həqiqi vətəndaş kimi inteqrasiya ola bilmirlər.

**Problemin elmi yeniliyi və aktuallığı:** N.B. Vəzirov "Sonraki peşmançılıq fayda verməz" adlı əsərini yazmış, ailələrdə baş verən münaqişələrin, sosial-psixoloji, etnopsixoloji xüsusiyyətlərini təhlil etmişdir. Əsərdə irəli sürülən fikirlər, ailə ziddiyyətlərinin acı, faciəli sonluqla qurtarması, gənc ailələrin dağılması məsələsi bu gün də aktual problem olaraq qalır.

**Problemin praktik əhəmiyyəti.** Bu baxımdan ailədə münasibətlər sisteminin tənzimində humanizmin inkişaf və tərbiyəsinə önəm verilməsi çox vacibdir. Əsərdə göstərilən mənfi halların qarşısının alınmasında əsərin təhlili tərbiyəvi əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT


1. Nəcəf Bəy Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, 2005.
2. Talıbzadə F.. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1967.
3. Baxşəliyev Ə.T. Azərbaycanın milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.

**А. Искендерова**

**СЕМЕЙНАЯ ПСИХОЛОГИЯ В ПРОИЗВЕДЕНИИ Н.Б.ВЕЗИРОВА «ПОЗДНЕЕ РАСКАЯНИЕ ПЛОДОВ НЕ ДАЕТ»**

***РЕЗЮМЕ***

В статье отмечается, что ранние браки, необразованность пар и недружелюбные взаимоотношения свекрови и невестки, бессмысленные и пустые разговоры, ссоры приводят к разводу и трагическим событиям. Эта проблема, превратившаяся в величайшее бедствие современного мира, на протяжении всей истории волновала писателей и мыслителей, и они искали пути решения данной проблемы. С этой целью Н.Б. Везиров написал произведение «Позднее раскаяние плодов не дает», проанализировав конфликты, социально-психологические и этнопсихологические особенности семей. В произведении рассматриваются духовные и психологические конфликты в двух семьях (семья Салман бея и Саттар бея). Описанные автором в данной статье проблемы и разногласия могут привести к семейным конфликтам и в современное время.

**A. Iskandarova**

**FAMILY PSYCHOLOGY IN THE WORK OF N.BESHEVROV "LATER FRIENDS DO NOT GIVE A FRIEND"**

***SUMMARY***

The article notes that early marriages, ignorance of couples and unfriendly relationships between mother-in-law and daughter-in-law, meaningless and empty conversations, quarrels lead to divorce and tragic events. This problem, which has turned into the greatest calamity of the modern world, throughout the whole history of worried writers and thinkers, and they were looking for ways to solve this problem. To this end, N.B. Vezirov wrote the work "Later repentance of the fruits does not give", analyzing the conflicts, socio-psychological and ethnopsychological features of families. The work deals with spiritual and psychological conflicts in two families (Salman Bey and Sattar Bey family). The problems and disagreements described by the author in this article can lead to family conflicts in modern times.

**Redaksiyaya daxil olub:** 08.02.2018